UOT: 368:368.01

*Heydər Rəşid oğlu AĞAYEV*
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ SIĞORTA SİSTEMİNİN İNKİŞAFININ NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının nəzəri-metodoloji aspektlərinin araşdırılması və müasir dövrün tələbləri, çağırışları ilə uzlaşdırılmasıdır.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində abstraksiya, təhlil, sintez, qruplaşdırma, ümumiləşdirmə və digər metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının intensivləşdirilməsi, sığorta şirkətlərinin fəaliyyətinin daha səmərəli təşkil olunması və əlçatan, cəlbedici sığorta xidmətlərinin göstərilməsindən ibarətdir.

**Tədqiqatın nəticələri** – Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının qlobal çağırışlar şəraitində olan tələblərə uyğun təmin edilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının nəzəri-metodoloji məsələlərinə müasir yanaşmaların və baxışın təmin olunması, yeni reallıqların obyektiv qiymətləndirilməsi, adekvat səviyyədə təkmilləşdirilmə və tənzimləmə tədbirlərinin görülməsi, bunlarla bağlı daha səmərəli mexanizmlərin və praktiki alətlərin müəyyənləşdirilməsindən ibarətdir.

***Açar sözlər: Azərbaycan, iqtisadi islahatlar şəraiti, sığorta, sığorta sistemi, işğaldan azad olunmuş torpaqlar, sığorta xidmətləri, COVİD-19 pandemiyası, sığorta sisteminin nəzəri-metodoloji aspektləri.***

## *Giriş*

Dünya iqtisadi proseslərində sığorta sisteminin formalaşdırılması və inkişaf etdirilməsi maliyyə bazarının inkişafı kontekstində reallaşdırılır və sığorta bazarı əslində dünya maliyyə bazarının kifayət qədər strateji əhəmiyyət kəsb edən seqmentlərindən hesab olunur. Xüsusilə, beynəlxalq ticarət əməliyyatlarında sığorta xidmətləri geniş çeşiddə tələb edilir və bundan əlavə həm könüllü, həm də həyat sığortalarının dünyada yüzdən çox növü və istiqamətləri vardır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sığorta xidmətlərindən bütün sahələrdə, o cümlədən həyat və sağlamlıqla bağlı məsələlərdə geniş şəkildə istifadə olunur [10, s. 54]. Son 50-70 il ərzində dünya ölkələrində sığorta xidmətlərinin inkişaf etdirilməsi xüsusi diqqət mərkəzində olmuşdur. Sığorta sisteminin təkmilləşdirilməsi dövlətlərin maliyyə siyasətinin tərkib hissəsi kimi çıxış etmişdir [16, s. 408]. Eyni zamanda, beynəlxalq səviyyədə beynəlxalq təşkilatlar tərəfindən sığorta ilə bağlı fəaliyyət prinsipləri, standartlar, təlimatlar və metodoloji yanaşmaların formalaşdırılmasına daha çox diqqət yetirilməkdədir [13].

Son dövrlərdə Azərbaycanda da sığorta sisteminin davamlı şəkildə inkişafı və zəruri tədbirlərin görülməsi istiqamətində addımlar atılmaqdadır. Sığorta fəaliyyəti ilə bağlı ölkə qanunları qəbul olunmuş və qanunvericilik bazası formalaşdırılmışdır. Bundan əlavə, dövlət tərəfindən sığorta bazarının inkişaf hədəfləri və prioritetləri ölkənin maliyyə bazarının inkişaf konsepsiyasının tərkib hissəsi kimi inkişaf etdirilmişdir. Maliyyə bazarında sığorta şirkətlərinin və ümumilikdə sığorta fəaliyyətinin rolunun gücləndirilməsi üzrə strateji hədəflər isə öz əksini strateji yol xəritəsində - ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə tapmışdır [3]. Sığortanın

dövlət tənzimlənməsinin əsas problemi bütövlükdə sığortalıların və ölkənin iqtisadiyyatının maraqlarını müdafiə etməkdir.

**Sığorta sisteminin formalaşmasına və inkişafına nəzəri-metodoloji yanaşmalar və dünya təcrübəsi**

Sığorta sisteminin formalaşdırılması və inkişaf etdirilməsi problemləri qlobal iqtisadi çağırışlar və xüsusilə, son illərdə dünya maliyyə bazarlarında baş verən köklü dəyişikliklər baxımından kifayət qədər yeni yanaşmaları və mexanizmləri şərtləndirir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bu istiqamətdə əsas fəaliyyət sahələri kimi yüksək texnologiyalar bazasında sığorta xidmətlərinin yenilənməsi, daha çevik və əlçatan olması problemlərinin həll edilməsinə diqqət artırılmaqdadır [15]. Nəzəri-metodoloji yanaşmalar baxımından sığorta xidmətlərinin və bütövlükdə sığorta sisteminin zaman kəsiyində təkmilləşdirilməsi, ənənəvi praktiki alətlərin kəsərliliyinin artırılması və tətbiq olunan sığorta növlərinin cəlbediciliyinin təmin olunması vacib məsələlər kimi xarakterizə edirilər. Bu istiqamətlərdə dünya maliyyə bazarında mühüm seqment olan sığorta bazarının tələb və təklif səviyyəsi də xüsusi olaraq diqqətdə saxlanılmalı və nəzərə alınmalıdır [12]. Artıq sığorta müəyyən bir zərərin ödənilməsi vasitəsi kimi baxılmır, böyük ölçüdə sığorta fəaliyyəti və sığorta xidmətləri iqtisadi proseslərin genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, xarici ticarət əməliyyatlarının həcminin artırılması, investisiyaların yatırılması və cəlb olunması, sahibkarlığın inkişaf etdirilməsi, biznesin böyüdülməsi məsələlərində sığorta mexanizmi strateji səviyyədə qiymətləndirilir və hər bir layihə, iri əməliyyat üzrə optimallaşdırılmış sığorta müqaviləsinin olması vacib şərtlərdən hesab edilir.

Qeyd edək ki, sığorta sisteminin inkişafına və təkmilləşdirilməsi problemlərinə yanaşmalar daim yenilənməkdədir [5]. Əsas məqsəd – sığorta fəaliyyəti ilə bağlı mexanizmlərin müasir dövrün tələblərinə uyğunlaşdırılması və həm də sığorta şirkətlərinin özlərinin maliyyə sabitliyinin təmin edilməsidir. Prioritet yanaşmalar sırasında – sığorta şirkətlərində risk-menecment mexanizminin səmərəliliyinin artırılması daha ciddi önəm kəsb edir [14]. Bundan əlavə, sığorta bazarının inkişaf etdirilməsi, onun mühüm seqmentlərinin maksimum təkmilləşdirilməsi tədbirləri də diqqət çəkir. Bu məsələlərdə daha çox narahat doğuran problemlərdən biri – sığorta şirkətlərinə sığortaolunanların inamının və etibarının kifayət qədər olmamasıdır [9, s. 89]. Eyni zamanda, dünya ölkələrinin sığorta mexanizmlərinin müqayisəsindən yanaşdıqda, görmək mümkündür ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələrin sığorta sistemləri arasında xeyli fərqlər vardır. Buna görə də, dünya təcrübəsinin, yəni mütərəqqi beynəlxalq təcrübənin maksimum dərindən öyrənilməsi və dəyərləndirilməsi vacibdir [11, s. 98]. Sığorta xidmətləri mühüm sosial-iqtisadi mahiyyətə malik olduğundan iqtisadiyyatın və cəmiyyətin bütün sahələrində tələb olunur. Bu amillər baxımından sığorta xidmətlərinin hər bir ölkənin sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə uyğun olaraq formalaşdırılması xeyli səmərə verə bilər [17, s. 255]. Bunlarla bərabər, dünya təcrübəsində sığorta şirkətlərinin investisiya fəaliyyəti geniş yayılmışdır. Qeyd olunan istiqamətdə sığorta şirkətlərinin investisiya fəaliyyətinin təhlili və onların rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi tələb olunur [18, s. 97].

Sığorta xidmətlərinin iqtisadiyyatın bütün sahələrində, sosial sferada, xidmət sahələrində fəal şəkildə tətbiq olunması hesabına həyata keçirilən əməliyyatların və fəaliyyətin daha güvənli şəkildə aparılması, ortaya çıxa biləcək zərərlərin isə kompensasiya olunmasında sığortadan istifadə hesabına bəhrələnməsi praktikası geniş yayılmışdır. Bu məsələdə başlıca yanaşma istənilən fəaliyyət sahəsində və real həyatda əmlak və insan həyatının mühafizəsinin təşkili üçün sığorta xidmətlərindən istifadə etməklə yarana biləcək mənfi fəsadların və zərərlərin aradan qaldırılmasına hüquqi və iqtisadi əsaslar yaratmaqdan ibarətdir. Buna görə də sığorta xidməti demək olar ki, iqtisadi fəaliyyətin bütün sahələrində geniş tələb olunandır və dünyada sığorta bazarının sürətli inkişaf etməsi də məhz bununla əlaqəlidir. Bunlarla bərabər, sığorta fəaliyyətinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər görülməli və sistemli tənzimlənmə mexanizmləri işlənib hazırlanmalıdır [2]. Sığorta sisteminin təkmilləşdirilməsi və qlobal maliyyə çağırışlarına uyğun olaraq, daha səmərəli fəaliyyət alətlərinin formalaşdırılması, onun multiplikativ təsirindən və çoxfunksiyalılıq

xüsusiyyətlərindən səmərəli istifadə etməklə, iqtisadi islahatların aparılmasında və inkişaf proseslərinin sürətləndirilməsində fəal istifadə olunmasına marağın yaranması diqqət çəkir və xüsusilə, COVİD-19 pandemiyasının təsirindən yaranan yeni şəraitdə sığorta xidmətlərinin modernləşdirilməsi və təkmilləşdirilməsinə əlavə zərurət ortaya çıxmışdır. İqtisadi islahatlar şəraitində sığorta sisteminin səmərəliliyinin təmin edilməsi problemləri vacib məsələlər kimi diqqət çəkirlər və sığorta fəaliyyətinin səmərəliliyinin təmin edilməsi ilə bağlı problemlərin mahiyyətinin fundamental şəkildə öyrənilməsi, açıqlanması və adekvat tədbirlərin görülməsi tələb olunur. Bu istiqamətdə sığorta sisteminin mövcud vəziyyəti və sığorta şirkətlərində maliyyə sabitliyi problemləri daha dərindən öyrənilməli və beynəlxalq təcrübədən irəli gələn mühüm məsələlər nəzərə alınmalıdır [7]. Burada başlıca yanaşma daha mütərəqqi sığorta mexanizmi formalarının ölkəmizdə adaptivlik problemlərinin yetərincə araşdırılması, işlək imkanları yüksək olan sığorta mexanizmlərinin tətbiq edilməsindən ibarət olmalıdır.

Ümumilikdə dünya maliyyə bazarının inkişaf etdirilməsi istiqamətində davamlı tədbirlərin görülməsi diqqət çəkir. Uzun illər ərzində maliyyə sabitliyinin təmin olunması istiqamətində təsirli mexanizmlərin işlənməsi, maliyyə-kredit siyasətinin təkmilləşdirlməsi, o cümlədən sığorta mexanizmlərinin inkişafı hesabına ümumilikdə iqtisadiyyatın bütün sahələrinin fəaliyyətinin genişləndirilməsi və gücləndirilməsi proseslərinin intensivliyini qeyd etmək olar. Bundan əlavə, hər bir investor və ya sahibkar yatırdığı sərmayənin və ya aldığı avadanlıqların, mülkiyyətin etibarlı şəkildə qorunması mexanizminə malik olmalı və fors-major, yaxud digər qəza halları, yanğınlar olduqda üzləşdikləri zərərin ən azından müəyyən hissəsinin kompensasiya olunması imkanlarının əldə edilməsində maraqlıdırlar. Dünya təcrübəsində bu kimi məsələlər daha çox sığorta şirkətlərinin və təşkilatlarının üzərinə düşür.

**Azərbaycanda sığorta sisteminin müasir vəziyyəti və onun inkişafına konseptual yanaşmaların strateji aspektləri**

Azərbaycanda sığorta bazarının inkişaf səviyyəsini xarakterizə edən bir sıra iqtisadi göstəricilərə nəzər salınmasını istərdik. Məsələn, Azərbaycanda 01.01.2020-ci il tarixinə cəmisi 35 sığorta şirkəti fəaliyyət göstərirlər. Onlardan 18-i qeyri-həyat sığortası üzrə ixtisaslaşmışdır, 4 sığorta şirkəti həyat sığortası ilə məşğul olur, bundan əlavə 12 broker kontorları fəaliyyət göstərirlər və cəmisi 1 təkrar sığorta şirkəti mövcuddur [4]. Bu təşkilatların fəaliyyətində müsbət cəhətlər ondan ibarətdir ki, son onilliklərdə ölkədə sığorta aktivlərinin həcmi dinamik artım nümayiş etdirmişdir. Belə ki, 2013-2019-cu illərdə fəaliyyət göstərən sığorta təşkilatlarının ümumi aktivlərinin həcmi 725,5 mln. manatdan 1411,5 mln. manatadək, yaxud 94,6 %-ə qədər artmışdır. Bundan əlavə, 2013-2019-cu illər üzrə sığorta müqavilələrinin sayı və onların siniflər üzrə bölgüsünə baxsaq, görmək olar ki, 2019-cu ildə sığorta müqavilələrinin sayı əhəmiyyətli səviyyədə artmış və bu artım 26% təşkil etmiş, bağlanmış müqavilələrin sayı isə 3,2 milyondan çox olmuşdur. Həmin müqavilələrin 1,7 milyonu icbari sığortaya, 1,5 milyondan çoxu isə könüllü sığortaya aiddirlər. Bundan əlavə, son illərdə bir sıra yeni istiqamətlər üzrə, məsələn, heyvandarlıq sahəsində sığorta xidmətlərinin çeşidinin genişlənməsini qeyd etmək olar. Kənd təsərrüfatı heyvanlarının sığortası müqavilələri əsasında 2016-2020-ci illərdə davamlı şəkildə sığorta ödənişləri aparılmışdır, məsələn, 2016-cı ildə 757,6 min manat, 2017-ci ildə 95000 manat, 2018-ci ildə 574,7 min manat, 2019-da 936,7 və 2020-ci ildə isə 613 min manatlıq sığorta ödənişləri həyata keçirilmişdir. Təəssüf ki, bu sahədə şəffaflığın və sağlam rəqabət mühitinin olduğunu söyləmək xeyli çətindir. Belə ki, kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortalanmasında başlıca fəaliyyət “Aqrolizinq” ASC-yə məxsusdur və onlar bu sahədə inhisar mövqedədirlər. Düzdür, dövlət tərəfindən görülən bu kimi tədbirlər indiki məqamda özünü doğruldur, amma azad bazar prinsiplərinin inkişaf etdirilməsini də gecikdirmək olmaz və hər bir fəaliyyət istiqaməti üzrə sağlam rəqabət mühitinin yaradılması strateji əhəmiyyət kəsb edir. Xüsusilə, maliyyə bazarlarının inkişaf etdirilməsi, maliyyə bazarının hər bir seqmentinin, o cümlədən sığorta sisteminin kompleks olaraq dəyərləndirilməsi, sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin olunması istiqamətində zəruri addımların atılması və stimullaşdırıcı tədbir-

lərin görülməsi vacibdir. Belə olduğu halda maliyyə bazarının ümumi inkişaf imkanlarının genişləndirilməsi mümkündür [1].

Cədvəl 1-də Azərbaycanda 2016-2020-ci illərdə sığorta şirkətləri üzrə sığorta haqlarının dinamikası verilmişdir.

***Cədvəl 1.***

***Azərbaycanda 2016-2020-ci illərdə sığorta şirkətləri üzrə sığorta haqlarının dinamikası, min manatla***

| | Sığorta şirkətləri | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| 1 | “A-Qroup Sığorta Şirkəti” Açıq Səhmdar Cəmiyyəti | 12 785 | 12 690 | 15 125 | 17 054 | 13 170 |
| 2 | “AtaSığorta” Açıq Səhmdar Cəmiyyəti | 9 289 | 13 716 | 18 094 | 13 889 | 22 438 |
| 3 | “Atəşgah Həyat” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti | 37 436 | 38 370 | 39 087 | 41 498 | 60 107 |
| 4 | “Atəşgah” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti | 39 815 | 39 126 | 36 884 | 25 358 | 36 806 |
| 5 | Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti | 41 225 | 40 445 | 49 067 | 49 122 | 43 389 |
| 6 | “Azərbaycan Sənaye Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 6 415 | 7 228 | 5 632 | 9 042 | 8 139 |
| 7 | “AzSığorta” Açıq Səhmdar Cəmiyyəti | 22 721 | 25 317 | 15 289 | 15 913 | 20 030 |
| 8 | “Bakı Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 941 | 1 299 | 1 140 | 2 062 | 1 024 |
| 9 | “Günay Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 2 638 | 9 505 | 7 222 | 9 045 | 5 837 |
| 10 | “İpək Yolu Sığorta” ASC | 19 148 | 17 682 | 18 495 | 17 320 | 17 003 |
| 11 | “Meqa Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 20 273 | 16 854 | 21 815 | 28 615 | 25 769 |
| 12 | "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti | - | 122 | 546 | 1 671 | 263 |
| 13 | “Paşa Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 77 679 | 152 758 | 212 559 | 242 632 | 264 988 |
| 14 | “Paşa Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 100 012 | 107 569 | 150 177 | 163 453 | 128 007 |
| 15 | “Qala Həyat” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti | 31 738 | 19 894 | 14 861 | 15 942 | 15 897 |
| 16 | “Qala Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 4 644 | 10 911 | 26 787 | 32 838 | 16 557 |
| 17 | “Rəvan Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 1 019 | 690 | 3 185 | 1 078 | 1 759 |
| 18 | "Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti | - | - | 977 | 3 672 | - |
| 19 | “Xalq Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 9 847 | 7 789 | 28 340 | 31 182 | 14 496 |
| 20 | "Aqrar Sığorta" Açıq Səhmdar Cəmiyyəti | - | - | - | 18 | - |
| | **Lisenziyası ləğv edilmiş sığortaçılar** | **48 452** | **34 902** | **15 896** | **7 229** | **32 275** |
| 21 | “Amrah Sığorta” Açıq Səhmdar Cəmiyyəti | 63 | 22 | 861 | 1 982 | 744 |
| 22 | “AXA MBASK” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti | 21 969 | 22 286 | 975 | 5 | 18 601 |
| 23 | “Standard Insurance” Açıq Səhmdar Cəmiyyəti | 20 327 | 12 595 | 14 060 | 5 242 | 12 931 |
| | **YEKUN** | **486 074** | **556 867** | **681 177** | **728 634** | **727 954** |

*Qeyd: ARMB-nin məlumatları əsasında tərtib olunmuşdur - https://www.cbar.az/page-189/insurance.*

Cədvəl 1-dən göründüyü kimi, bir sıra sığorta şirkətləri bazardakı rəqabətə tab gətirməmişdir. Amma burada COVİD-19 pandemiyasının mənfi təsirini də nəzərə almaq lazım gəlir. Məsələn, “Atəşgah Həyat” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin 2016-2020-ci illərdə sığorta haqları-

nın dinamikası xeyli artmış və xüsusilə 2020-ci ildə 2019-cu ilə nisbətən artım 45 %-ə yaxın olmuşdur, amma 2020-ci ildə “Azərbaycan Sənaye Sığorta”, “Günay Sığorta”, “Xalq Sığorta”, "Naxçıvansığorta", “Paşa Sığorta”, “Qala Sığorta”, “Meqa Sığorta” Açıq Səhmdar Cəmiyyətlərində sığorta haqlarının dinamikası əvvəlki ilə nisbətdə azalma tendensiyası göstərmişdir. Ölkə üzrə isə demək olar ki, sığorta haqlarının həcmi 2019-cu ilə nisbətən eyni səviyyədə olmuş və 728 mln. manata yaxın təşkil etmişdir.

Cədvəl 2-də Azərbaycanda 2016-2020-ci illərdə sığorta növləri üzrə sığorta haqlarının dinamikası təhlil olunmuşdur.

***Cədvəl 2***

***Azərbaycanda 2016-2020-ci illərdə sığorta növləri üzrə sığorta haqları, min manatla***

| Sığorta növləri | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Könüllü sığortalar üzrə - cəmi: | 318 691,8 | 375 231,5 | 536 147,0 | 456 604,2 | 502 768,7 |
| *o cümlədən:* | | | | | |
| Həyat sığortası üzrə, o cümlədən: | 115 602,9 | 177 855,8 | 305 700,4 | 219 371,2 | 249 794,3 |
| həyatın yaşam sığortası | 79 775,6 | 137 927,7 | 253 943,5 | 166 110,1 | 205 341,7 |
| həyatın ölüm halından sığortası | 35 382,8 | 37 942,4 | 48 090,5 | 48 537,0 | 43 130,2 |
| əmək qabiliyyətinin sığortası | 351,6 | 1 868,2 | 3 388,4 | 4 373,5 | 843,5 |
| sağalmaz xəstəliklərdən sığorta | 92,8 | 117,5 | 278,0 | 350,6 | 478,9 |
| Qeyri-həyat sığortası üzrə, o cümlədən | 203 088,8 | 197 375,7 | 230 446,6 | 237 233,0 | 252 974,4 |
| Şəxsi sığorta, o cümlədən: | 91 123,8 | 90 538,5 | 94 115,3 | 104 119,9 | 105 894,2 |
| tibbi sığorta | 84 668,4 | 83 165,7 | 87 057,3 | 95 825,5 | 101 564,6 |
| xaricə səfər edən vətəndaşların sığortası | 2 605,1 | 3 100,2 | 3 758,1 | 4 878,0 | 1 416,1 |
| fərdi qəza və xəstəlik sığortası | 3 850,2 | 4 272,7 | 3 299,9 | 3 416,4 | 2 913,6 |
| Əmlak sığortası, o cümlədən: | 111 965,1 | 106 837,2 | 136 331,3 | 133 113,1 | 147 080,2 |
| əmlakın sığortası, o cümlədən: | 89 567,3 | 87 517,5 | 112 095,5 | 111 710,6 | 125 751,6 |
| hava nəqliyyatı vasitələrinin sığortası | 11 972,0 | 10 561,9 | 10 334,9 | 10 637,3 | 15 753,6 |
| əmlakın yanğından və digər risklərdən sığortası | 43 272,4 | 37 813,4 | 59 373,4 | 51 069,0 | 56 281,7 |
| avtonəqliyyat vasitələrinin sığortası | 21 260,5 | 22 546,9 | 28 449,7 | 36 280,6 | 36 875,9 |
| yüklərin (nəqliyyat) sığortası | 4 087,9 | 3 257,5 | 4 199,6 | 3 852,0 | 5 731,2 |
| kənd təsərrüfatı heyvanlarının sığortası | 1 222,5 | 3 009,1 | 2 040,3 | 1 438,8 | 2 842,0 |
| su nəqliyyat vasitələrinin sığortası | 6 237,6 | 7 595,5 | 6 278,0 | 7 916,3 | 7 784,5 |
| dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 345,9 | 310,5 | 106,6 | 47,5 | 36,1 |
| kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 601,0 | 1 325,7 | 639,8 | 183,8 | 9,2 |
| əmlakın sığortası ilə bağlı digər siniflər, o cümlədən: | 567,5 | 1 096,9 | 673,3 | 285,4 | 437,5 |
| - işçilərin dələduzluğu sığortası | 525,7 | 1 048,0 | 626,9 | 285,4 | 437,5 |
| - pul və pul sənədlərinin saxtalaşdırılmasından sığorta | 41,9 | 48,9 | 46,3 | 0,0 | 0,0 |
| mülki məsuliyyətin sığortası, o cümlədən: | 22 374,8 | 19 310,3 | 22 375,1 | 20 923,4 | 20 829,0 |
| hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 4 276,4 | 4 459,0 | 4 382,4 | 4 807,8 | 4 853,4 |
| ümumi mülki məsuliyyətin sığortası | 12 934,2 | 10 229,2 | 13 335,4 | 11 519,4 | 11 067,7 |
| avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 1 496,2 | 1 211,1 | 1 174,5 | 883,7 | 1 726,9 |
| peşə məsuliyyətinin sığortası | 1 752,1 | 1 949,4 | 2 036,6 | 2 095,6 | 2 196,6 |
| işəgötürənin məsuliyyət sığortası | 1 312,1 | 1 183,5 | 1 125,9 | 1 212,6 | 898,2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| yük daşıyanın mülki məsuliyyətinin sığortası | 50,4 | 28,9 | 50,4 | 0,0 | 0,0 |
| su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 398,5 | 249,2 | 269,9 | 361,1 | 86,2 |
| dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 0,0 | 0,0 | 0,0 | 43,2 | 0,0 |
| mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 154,9 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| kredit sığortası, o cümlədən: | 21,3 | 0,1 | 1 860,1 | 157,7 | 91,6 |
| kreditlərin sığortası | 21,3 | 0,1 | 1 860,1 | 157,7 | 91,6 |
| qarışıq maliyyə risklərinin sığortası, o cümlədən: | 1,6 | 9,3 | 0,6 | 321,5 | 408,0 |
| işin dayanması ilə bağlı risklərdən sığorta | 1,6 | 9,3 | 0,6 | 321,5 | 408,0 |
| İcbari sığortalar üzrə - cəmi: | 167 382,5 | 181 635,1 | 191 807,1 | 224 572,6 | 225 865,4 |
| *o cümlədən:* | | | | | |
| Həyat sığortası üzrə | 31 249,2 | 33 165,4 | 35 292,5 | 48 112,9 | 53 949,7 |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 31 249,2 | 33 165,4 | 35 292,5 | 48 112,9 | 53 949,7 |
| Qeyri-həyat sığortası üzrə | 136 133,3 | 148 469,7 | 156 514,6 | 176 459,8 | 171 915,6 |
| avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 81 073,6 | 92 604,0 | 95 440,5 | 100 430,2 | 93 293,5 |
| daşınmaz əmlakın icbari sığortası | 25 196,9 | 27 928,4 | 30 364,5 | 43 426,8 | 46 140,8 |
| daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 276,2 | 296,1 | 299,4 | 403,6 | 407,8 |
| sərnişinlərin icbari fərdi qəza sığortası | 97,2 | 103,8 | 112,8 | 109,3 | 108,8 |
| digər icbari sığorta növləri | 29 489,3 | 27 537,4 | 30 297,5 | 32 089,8 | 31 964,8 |
| YEKUN | 486 074,3 | 556 866,6 | 727 954,1 | 681 176,8 | 728 634,1 |

*Qeyd: ARMB-nin məlumatları əsasında tərtib olunmuşdur - https://www.cbar.az/page-189/insurance,*

Cədvəl 2-nin təhlilinə baxsaq, ölkəmizdə 2016-2020-ci illərdə sığorta növləri üzrə sığorta haqlarının həcmi 50 %-ə yaxın artmış və 2020-ci ildə 728,6 mln. manat səviyyəsində olmuşdur. Maraqlıdır ki, pandemiya şəraitində, yəni 2020-ci ildə sığorta haqlarının həcmi 2019-cu illə nisbətdə 7 % yaxın artım nümayiş etdirmişdir.

Hesab edirik ki, məhz iqtisadi islahatlar şəraitində, həmçinin qlobal təhlükələrin artdığı bir dövrdə sığorta xidmətlərinin strukturu daha da genişləndirilməli və sığorta haqlarının, həmçinin sığorta ödənişlərinin həcminin müasir dövrün tələblərinə uyğun şəkildə artırılması zərurəti vardır. Bunun üçün sığorta bazarının aktual problemlərinin daha obyektiv olaraq baxılması, şəffaflığın təmin edilməsi vacibdir [6]. Eyni zamanda, sığorta bazarının fəaliyyətində, tətbiq olunan mexanizmlərində və praktiki alətlərində hazırkı dövrün trendləri və inkişafın yeni çağırışları mütləq şəkildə nəzərə alınmalıdır [8, s. 34]. Daha bir önəmli məsələ - işğaldan azad olunmuş ərazilərdə çevik və əlçatan, həm də sığorta paketinin hazırlanması və gecikdirilmədən həyata keçirilməsi vəzifələri qarşıda durur.

## *Nəticə*

Beləliklə, müasir dövrdə iqtisadiyyatın qarşısında duran strateji vəzifələrin reallaşdırılmasında, aparılan iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının sürətləndirilməsində yeni yanaşmaların formalaşdırılması və bu halda qlobal çağırışların, həmçinin COVİD-19 pandemiyası-

nın mənfi təsirinin və ölkəmizdə sığorta fəaliyyətinin təkmilləşdirilməsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və bərpası amilinin nəzərə alınması vacib şərtlər kimi qiymətləndirilə bilər. Bunlarla bağlı bir sıra məsələlərə daha çox diqqətin yönəldilməsi və təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi tələb olunur:

- Sığorta sisteminin inkişafı ilə bağlı nəzəri-metodoloji yanaşmalar müasir dövrün çağırışlarına uyğun şəkildə baxılmalı və tənzimləmə tədbirləri həyata keçirilməlidir;
- Ölkədə aparılan iqtisadi islahatlar şəraitində sığorta sisteminin rolunun gücləndirilməsi və sığorta xidmətləri paketinin adekvatlığı ciddi araşdırılmalı və lazım gəldikdə onların yenilənməsi, təkmilləşdirilməsi təmin olunmalıdır;
- Maliyyə bazarının mühüm seqmenti olan sığorta bazarına çıxarılan sığorta xidmətləri paketinin əlçatanlıq və səmərəlilik problemləri mütləq şəkildə nəzərə alınmalı və bu xidmətlərin göstərilməsi üçün ölkənin bütün ərazisində, o cümlədən uzaq regionlarda müvafiq infrastruktur və şərait yaradılmalıdır;
- Ölkə regionlarında iqtisadi fəallığın artırılması və iqtsiadi islahatların dərinləşdirilməsi şəraitinə uyğun şəkildə sığorta xidmətlərinin təşkili təmin edilməli və bununla bağlı sistemli tədbirlər görülməlidir;
- Ölkənin sığorta sisteminin işləkliyinin gücləndirilməsi, müasir şəraitdə COVİD-19 pandemiyasının mənfi təsiri kontekstində və işğaldan azad olunmuş ərazilərin inkişaf etdirilməsi çərçivəsində daha çevik və əlçatan sığorta xidmətləri paketlərinin hazırlanması və tətbiq olunmasına ehtiyac vardır, bununla əlaqədar beynəlxalq təcrübədən yararlanmaq və daha mütərəqqi sığorta fəaliyyəti modellərinin ölkəmizdə mənimsənilməsi, inkişaf etdirilməsi məsələlərinin sürətləndirilməsinə ehtiyac vardır.

## ƏDƏBİYYAT

1. Ataşov, B.X. Maliyyə bazarları. / B.X. Ataşov – Bakı, “Kooperasiya nəşriyyatı”, 2016. – 456 s.
2. Ataşov, B.X., Ələkbərov Ə.Ə., Xudiyev N.N. “Sığorta işi”. Ali məktəblər üçün dərslik. Bakı, 2018, “Kooperasiya” nəşriyyatı, 416 s.
3. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.59 s.
4. Azərbaycanın statistik göstəriciləri, 2020. Statistik məcmuə. – 772 s.
5. European Insurance. Key Facts // European Insurance. - 2012. - August.- 16 p.
6. Hüseynov, Ş. Sığorta bazarının aktual problemləri və inkişaf perspektivləri. 15 Fevral. https://fins.az/sigorta/226318/siorta-bazarinin-aktual-problemleri-ve-inkisaf-perspektivleri/.
7. İbrahimov, K.M. Azərbaycanda sığorta sisteminin mövcud vəziyyəti və sığorta şirkətlərində maliyyə sabitliyi problemləri // “Audit” Jurnalı, cild 19, №2, 2018.-S.49-57.
8. İbrahimov, K.M. Azərbaycanın sığorta bazarı: trendlər və inkişafın yeni çağırışları // İpək Yolu, No.2, 2020, – s.31-42.
9. Бурыкин, А.Д., Юрченко А.В. Проблемы и перспективы развития страхового рынка в России // Вестник Московского финансово-юридического университета. 2015. № 2. С. 86–96.
10. Колесникова, Т.В. Страхование в системе международных экономических отношений: / Т. В. Колесникова. – Иркутск: Изд-во БГУЭП, 2015. – 148 с.
11. Колодезникова, И.В., Кондуров Р.В., Галицкая Д.В. Особенности функционирования систем социального страхования России и Германии: социологический анализ // Вестн. Моск. Ун-та. Сер. 18. Социология и политология. 2019. Т. 25. № 2. – с.93-115.
12. Махдиева, Ю.М., Махдиев, М.Г. К вопросу о сущности и особенностях страховой услуги как товара // Вопросы структуризации экономики. 2013. №2. – с. 114-118.
13. Основные принципы страхования, стандарты, инструкции и методология оценок. Международная Ассоциация Органов Страхового Надзора, 2015. – 269 с.

14. Редькина, А.А., Гребеник В.В. Особенности риск-менеджмента в страховых компаниях // Вестник Евразийской науки, 2018 №3, – с.1-11 - https://esj.today/PDF/65ECVN318.pdf.
15. Роль страхового рынка в системе социально-экономических отношений: Опыт Европы. https://core.ac.uk/download/pdf/32612909.pdf.
16. Сергиенко, Н.С., Суслякова О.Н. Государственное страхование в первой половине XX века// Аудит и финансовый анализ. 2015. №3, с. 406-410.
17. Суслякова, О.Н. Страхование жизни: необходимость и итоги развития в России // Инновационная экономика: перспективы развития и совершенствования. 2016. №1 (11). – с.253-258.
18. Тургаева, А.А. Инвестиционный потенциал страховых компаний и оценка их конкурентоспособности // Финансы и кредит. 2017. – №2 (722).– с.89-109.

***Гейдар Рашид оглы Агаев***
***докторант Азербайджанского***
***Университета Кооперации***

**Теоретико-методологические аспекты развития системы страхования в Азербайджане в условиях экономических реформ**

***Резюме***

**Цель исследования** – в статье рассматриваются теоретико-методологические аспекты развития системы страхования в Азербайджане в условиях экономических реформ в соответствии с современными требованиями и вызовами.

**Методология исследования** – использована группа экономических методов, в том числе, абстракция, анализ, синтез, обобщение и др.

**Практическое значение исследования** – заключается в обеспечении интенсификации развития системы страхования в Азербайджане в условиях экономических реформ, более эффективная организация деятельности страховых компаний и предоставление доступных, в то же время, привлекательных страховых услуг.

**Результаты исследования** подготовлена группа предложений и рекомендаций по обеспечению и функционированию системы страхования Азербайджана в условиях экономических реформ в контексте глобальных вызовов.

**Оригинальность и научная новизна исследования** – заключается в формировании современных подходов и научных взглядов по совершенствованию системы страхования в условиях экономических реформ с учетом объективной оценки новых реалий и обеспечения адекватного регулирования и совершенствования страховых механизмов в Азербайджане.

***Ключевые слова: Азербайджан, условия экономических реформ, страхование, система страхования, территории, освобожденные от оккупации, страховые услуги, пандемия COVID-19, теоретико-методологические аспекты системы страхования.***

***Heydar Rashid Agayev***
***doctoral student of Azerbaijan***
***University of Cooperation***

***Theoretical and methodological aspects of the development of the insurance system in Azerbaijan in the context of economic reforms***

***Summary***

**The purpose of the study** - theoretical and methodological aspects of the development of the insurance system in Azerbaijan in the context of economic reforms in accordance with modern requirements and challenges are considered in the article.

**Research methodology** - a group of economic methods, including abstraction, analysis, synthesis, generalization, etc. is used.

**The practical significance of the study** is to ensure the intensification of the development of the insurance system in Azerbaijan in the context of economic reforms, more effective organization of the activities of insurance companies and the provision of affordable, at the same time, attractive insurance services.

**Results of the research -** a group of proposals and recommendations on the provision and functioning of Azerbaijan's insurance system in the context of economic reforms in the context of global challenges are prepared in the article.

**Originality and scientific novelty of the research** is the formation of modern approaches and scientific views on improving the insurance system in the context of economic reforms, taking into account the objective assessment of new realities and ensuring adequate regulation and improvement of insurance mechanisms in Azerbaijan.

***Key words: Azerbaijan, conditions of economic reforms, insurance, system of insurance, territories freed from occupation, insurance services, COVID-19 pandemic, theoretical-methodological aspects of a system of insurance.***